COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

1949.2019

# "AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI" LAYİHƏSİ

## HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən hüdudları daxilində yaşayan bütün vətəndaşlarına siyasi və mülki hüquqları təmin edir.**

**Özləri və ya valideynləri keçmiş Rusiya imperiyasının təbəəsi olmuş və Azərbaycan Cümhuriyyətinin vətəndaşından anadan olmuş şəxslərdən əlavə, Azərbaycan Cümhuriyyətinin vətəndaşlığı o cümlədən bu şəxslərə verilir:**

- **əcnəbiyə ərə getmiş Azərbaycan Cümhuriyyətinin vətəndaşı olan qadına – nikaha xitam verildikdə;**
- **Azərbaycan Cümhuriyyətinin vətəndaşı olan qadının əcnəbi ilə nikahından anadan olmuş, yaşı 17-yə qədər olan uşaqlara**

Azərbaycanın müstəqil dövlət elan olunması haqqında Azərbaycan Milli Şurasının 1 saylı Qərarı, 28.05.1918, bənd 4;“Azərbaycan vətəndaşlığı haqqında” Qanun, 11.08.1919, maddə 1, 2

# "AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI" LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Azərbaycan Parlamenti 120 üzvdən ibarətdir.**

**Müəssislər Məclisinin üzvləri əhali tərəfindən cins fərqi olmadan ümumi və bərabər seçki hüququ əsasında gizli səsvermə yolu ilə birbaşa seçkilərdə seçilir. Yaşı 20-yə çatmış hər iki cinsdən olan ölkə vətəndaşları seçkilərdə iştirak edə bilər.**

**Şəhər dumaları üzvləri bərabər, müstəqim və gizli seçki prinsipləri əsasında seçilir. Cinsindən, dinindən və milliyyətindən asılı olmayaraq, 20 yaşına çatmış və son 1 ildə həmin şəhərdə yaşayan Azərbaycan Cümhuriyyətinin bütün vətəndaşlarının aktiv seçki (seçmək) hüququ, seçkilərdə iştirak üçün müəyyən edilmiş tələblərə cavab verən hər bir şəxsin, həmin şəhərdə yaşamasından asılı olmayaraq, passiv seçki (seçilmək) hüququ var**

"Azərbaycan Parlamentinin yaradılması haqqında" Qanun, 20.11.1918, maddə 1; "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında" Əsasnamə, maddə 1, 3; "Azərbaycan Cümhuriyyətində şəhər dumaları üzvləri seçkilərinin keçirilməsi haqqında" Qaydalar, 07.08.1919

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Qəzetlərdə, çap məhsulu üzərində senzura ləğv edilir.**

**Mətbəələr, çapetmə üçün digər müəssisələr, oxu üçün otaqlar açılmasına, çap əsərlərinin nəşrinə və satışına icazəli rejim (hakimiyyət orqanlarının icazəsi) deyil, məlumatlandırma rejimi tətbiq edilir: dövri nəşrlər və mətbəələr açmaq istəyən şəxs yalnız öz niyyəti barədə Hökumətin İşlər İdarəsi nəzdindəki Mətbuat işləri üzrə Baş müvəkkilin adına ərizə təqdim edir.**

**Mətbu orqan yalnız məhkəmə qaydasında, qanuni əsaslarla məsuliyyətə cəlb edilə bilər.**

Hökumət sərəncamı, 09.11.1918; “Mətbuat haqqında nizamnamə”, 30.10.1919

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Bakı şəhərində 4 fakültədən ibarət dövlət universiteti təsis edilsin. Yeni tələbələrin qəbulu ümumi əsaslarla aparılmalı, həm qadın, həm də kişi cinsindən olan şəxslər qəbul edilir. Universitetin ştatında sadalanan tədris, idarəetmə və təsərrüfat yönümlü vəzifələri kişi cinsindən olan şəxslərə qoyulan senzlərə cavab verən qadın cinsindən olan şəxslər də tuta bilərlər.**

**Bakı və Gəncədə hər biri iki bölmədən (kişi və qadınlar üçün) ibarət 2-aylıq pedaqoji kurslar açılsın.**

**Bakı şəhərində bir qadın müəllimlər seminariyası və Zaqatalada bir kişi müəllimlər seminariyası açmağa icazə verilsin.**

HÜQUQİ AÇIQCALAR

“Bakı şəhərində Azərbaycan hökumət darülfünunun təşkil edilməsi haqqında” Qanun, 01.09.1919, maddə 1, 8, 9 “Qısamüddətli pedaqoji kursların açılması haqqında” Qanun, 17.07.1919, “Bakı və Zaqatalada müəllimlər seminariyalarının açılması haqqında” Qərar, 02.02.1920

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

1949.2019

**Universitetdə çalışan qadınlar eyni vəzifələri tutan kişilərlə bərabər maaş və digər xidməti hüquqlar əldə edir, bərabər əsaslarla və eyni məbləğdə pensiya və birdəfəlik müavinətlər alırlar, bu şərtlə ki:**

- **qadın bu qanunla əldə edilən hüquqlara ərə getdikdə də malik olur (ərinin xidmətinə görə ona çatası pensiyadan asılı olmayaraq);**
- **ata və anası pensiya hüququ əldə etmiş qadın cinsindən olan yetim uşaqlara valideynlərinin pensiyasının onlara çatacaq hissəsi ödənilir;**
- **qadınların aldıqları pensiyalara büdcəyə müəyyən edilmiş tutulmalar tətbiq edilir.**

**Qadın orta təhsil müəssisələrinin işçilərinin hüquq və maaşları eynitipli kişi təhsil müəssisələrinin işçilərininki ilə bərabərləşdirilir**

Bakı Dövlət Universitetinin Nizamnaməsi, 1919, 72-ci bənd, “Qadın orta təhsil müəssisələrinə dair Əsasnaməyə əlavə və dəyişikliklər haqqında” Qanun, maddə 3

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**Avropa Konvensiyasında təsbit olunmuş hüquq və azadlıqlardan istifadə o cümlədən cinsə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.**

**Heç kim o cümlədən cinsə görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmamalıdır.**

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiya, maddə 14; 12 saylı Protokol, maddə 1

HÜQUQİ AÇIQCALAR

# "AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI" LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## Üzv dövlətlər:

- reklamda ayrı-seçkiliyə təhrik etməni qanun pozuntusu hesab edən, habelə qadın təşkilatlarına kollektiv maraqlarını müdafiə etmək üçün məhkəməyə şikayət etmək hüququ verən qanunlar qəbul etməli,
- qadınlara qarşı ayrı-seçkiliyə təhrik etmə kimi qiymətləndirilə bilən reklamların yayılmasının qarşısını almalı,
- reklam peşəkarlarıma təlimlər keçməli, ümumi maarifləndirmə işi aparmalı,
- şagirdlərə reklam və reallıq arasında fərqi açıqlayan layihələr həyata keçirməli,
- insan ləyaqətini alçaldan qadın təsviri olan reklamdan ictimaiyyətin şikayət etməsi üçün pulsuz telefon xətti, e-mail və faktiki ünvan ayırmalıdırlar

Avropa Şurası Parlament Assambleyasının 1557 (2007) saylı "Reklamda qadınların imici"nə dair Qətnaməsi

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Üzv dövlətlər:

- irqi ayrı-seçkiliklə eyni dərəcədə məsuliyyət yaradacaq "cinsiyyətçilik" anlayışını qanunvericiliyə daxil etməli,
- mediada gender bərabərliyi haqqında qanun qəbul etməli,
- media assosiasiyalarına insan hüquqlarının pozuntusu baş verdiyi hallarda məhkəməyə şikayət etmək hüququ verməli,
- qadınlarla kişilərin balanslaşdırılmış təmsilçiliyini təmin etmək üçün pozitiv ayrı-seçkilik tədbirlərindən və ya kvota sistemlərindən istifadə etməli, jurnalistika fakültələrinə zəruri vəsaitlər yönəltməlidirlər

Avropa Şurası Parlament Assambleyasının 1555 (2002)1 saylı “Mediada qadınların imici”nə dair Tövsiyəsi, 10-cu bənd

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Media təşkilatları

qadın və kişilər üçün bərabər imkanları təmin etmək və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə gətirib çıxara biləcək gender xarakterli reklam, dil və məzmunun, nifrətə təhrikin və gender əsaslı zorakılığın aradan qaldırılması məqsədilə

- özünütənzimləmə tədbirləri həyata keçirməli,
- etik davranış kodeksi qəbul etməli,
- daxili nəzarəti təmin etməli,
- gender bərabərliyini təbliğ edən daxili standartlar hazırlamalıdırlar

Nazirlər Komitəsinin üzv dövlətlərə gender bərabərliyi və mediaya dair Tövsiyəsi CM/Rec(2013)1

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

1949.2019

## Əlavə tədbirlər:

- ictimai müzakirələr əsasında mediada gender bərabərliyi üzrə milli göstəricilər qəbul edilməli, həyata keçirilməli, onların əsasında KİV-də gender bərabərliyi vəziyyəti monitorinq edilməli və qiymətləndirilməli,
- gender bərabərliyi üçün KİV arasında şəbəkə və tərəfdaşlıq inkişaf etdirilməli,
- vətəndaşlar arasında birbaşa məlumat mübadiləsiyolu ilə ictimai müzakirələr üçün onlayn və oflayn forumlar yaradılmalı,
- gender bərabərliyi və media üzrə fəal tədqiqat aparılmalı və nəticələr ictimailəşdirilməli,
- valideyn və müəllimlər də daxil olmaqla böyüklər media ilə bağlı maarifləndirilməlidir

Nazirlər Komitəsinin üzv dövlətlərə gender bərabərliyi və mediaya dair Tövsiyəsi CM/Rec(2013)1

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

1949.2019

**Parlamentlər üzvlərini aşağıdakılara çağırmalıdır:**

- **cinsiyyətçi çalarlara malik ifadələrdən istifadə etməməyə və parlamentdəki fəaliyyətlərinin gedişində cinsiyyətçi stereotiplərə müraciət etməməyə,**
- **qadın deputatlığa namizədlərin və deputatların mediaya kişi həmkarları ilə eyni dərəcədə çıxış imkanına malik olmalarını tələb etməyə**

HÜQUQİ AÇIQCALAR

Avropa Şurası Parlament Assambleyasının 1751 (2010) saylı
“Mediada cinsiyyətçi stereotiplərlə mübarizə”yə dair Qətnaməsi

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Üzv dövlətlər bunları təşviq etməlidir:

- mediada qadınların statusu və rolunun təhlili,
- media vasitələrinin müraciət edə biləcəyi qadın ekspertlərin və qadın məsləhətçilərin siyahılarının tərtib edilməsi,
- fəaliyyətlərində qadınların və kişilərin balanslaşdırılmış iştirakına şərait yaradan media vasitələrinin həvəsləndirilməsi,
- analitik xidmətlərin yaradılması,
- məktəblərdə şagirdlərə media materiallarının şərh edilməsi və cinsiyyətçi stereotipləri aşkara çıxarmaq vərdişlərinin aşılanması və onların gender bərabərliyi məsələləri ilə tanış edilməsi

Avropa Şurası Parlament Assambleyasının 1751 (2010) saylı “Mediada cinsiyyətçi stereotiplərlə mübarizə”yə dair Qətnaməsi

HÜQUQİ AÇIQCALAR

**Gender –**

**cəmiyyətin qadın və kişilər üçün müvafiq hesab etdiyi**

- **sosial rollar,**
- **davranışlar,**
- **fəaliyyət və**
- **atributlardır**



**Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyası, maddə 3, c bəndi**

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Cinsiyyətçilik -

- şəxsin və ya şəxslər qrupunun cinsi mənsubiyyətinə görə daha aşağı olması ideyasına əsaslanan,
- şəxsin (şəxsə) və ya şəxslər qrupunun (qrupuna) ləyaqətinə toxunmaq və ya hüquqlarını pozmaq, fiziki, cinsi, psixoloji və ya sosial-iqtisadi zərər vurmaq, hədə-qorxulu, düşmənçilik, ləyaqəti alçaldan, alçaldıcı yaxud təhqiredici mühit yaratmaq, avtonomluğuna və ya onlar tərəfindən insan hüquqlarının tam şəkildə həyata keçirilməsinə maneə olmaq yaxud gender stereotiplərini təsdiqləmək və ya onları gücləndirmək məqsədilə edilən və ya bu nəticələrdən birinə gətirib çıxaran

özəl və ya ictimai sferada onlayn və ya oflayn hərəkət, təsvir, şifahi / yazılı sözlər, fəaliyyət və ya davranışdır

Avropa Şurası Nazirlər Komitəsinin “Cinsiyyətçiliyinin qarşısının alınması və ona qarşı mübarizəyə dair” CM/Rec(2019)1 saylı Tövsiyəsi, 27.03.2019

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Qadınlara qarşı zorakılıq -

- insan hüquqlarının pozuntusudur,
- qadınlara qarşı ayrı-seçkiliyin formasıdır,
- ictimai və ya şəxsi həyatda qadınlara fiziki, cinsi, psixoloji və ya iqtisadi zərər vuran, iztirab yetirən (yetirə bilən) gender zəminli zorakılıq əməlləridir, o cümlədən bu əməllərin törədiləcəyi ilə hədələmə, məcbur etmə və ya özbaşına azadlıqdan məhrumetmə

Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyası, 11.05.2011, maddə 3, a bəndi

HÜQUQİ AÇIQCALAR

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

**Məişət zorakılığı –**

- **təqsirkarın qurbanla eyni yaşayış yerini paylaşdığından və ya paylaşmış olmasından asılı olmayaraq,**
- **ailə daxilində və ya məişətdə,**
- **yaxud keçmiş və ya hazırkı ər-arvad və ya partnyorlar arasında baş verən fiziki, cinsi, psixoloji və ya iqtisadi**

**zorakılıq əməlləridir.**

Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyası, maddə 3, b bəndi

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Qadınlara qarşı zorakılığa və məişət zorakılığına məruz qalan hər bir şəxs “qurban” hesab edilir.**

**18 yaşından kiçik qızlar da “qadın” hesab edilir.**

HÜQUQİ AÇIQCALAR

Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyası, maddə 3, e və f bəndləri

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

**Qadınlara qarşı gender zəminli zorakılıq -**

- **qadın olduğu üçün ona qarşı yönələn və ya**
- **qadınların qeyri-mütənasib olaraq zərər çəkdikləri zorakılıqdır.**

**HÜQUQİ AÇIQCALAR**

Avropa Şurasının “Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında” Konvensiyası, 11.05.2011, maddə 3, d bəndi

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

## Mediada qadınlar və kişilər arasında bərabərliyi təmin etmək üçün:

- xüsusilə kənd yerlərində yaşayan qadınlar və qadın miqrantlar üçün maarifləndirici proqramlar yayımlanmalı,
- işə qəbul və s. əmək şərtlərində kişi və qadın arasında bərabərlik təmin edilməli,
- rəhbərlikdə və idarəetmədə qadınlar bərabər nisbətdə təmsil olunmalı,
- media müzakirələrində qadınlar daha çox iştirak etməli,
- dövlət maliyyəsi ilə edilən reklam / kampaniyalarda qadınların ləyaqəti qorunmalı, müsbət imici sərgilənməli, qadın-kişi partnyorluq münasibətləri cinsi stereotiplərsiz əks olunmalı,məhsula (xidmətə) diqqət cəlb etmək üçün qadın və kişi bədənindən istifadə olunmamalıdır.

**HÜQUQİ AÇIQCALAR**

Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlərə mediada qadınlar və kişilər arasında bərabərliyə dair R(84)17 saylı Tövsiyəsi, 25.09.1984

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

İnsan ləyaqətinə hörmət reklamvericilərin daimi məqsədlərindən biri olmalıdır. Reklamlar qadınları istehlak malları və ya cinsi obyekt kimi təsvir etməməlidir.

Assambleya arıq qadınların gözəllik standartı kimi təqdim olunduğu bəzi reklamların gənc qızların sağlamlığına anoreksiya, sonradan osteoporoz kimi xəstəliklər şəklində vurduğu zərəri pisləyir.

Cinsiyyətçi stereotipləri dağıdan və qadınlarla kişilər arasında bərabərliyi təşviq edən reklamlar mükafatlandırılmalıdır.

Avropa Şurası Parlament Assambleyasının 1557 (2007) saylı “Reklamda qadınların imici”nə dair Qətnaməsi; 1799(2007) saylı “Reklamda qadınların imici”nə dair Tövsiyəsi, 4-cü bənd

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**Kişi ilə qadının eyni hüquq və azadlıqları vardır. Dövlət gender bərabərliyini təmin edir.**

**Gender bərabərliyi -**

- **qadın və kişilərin hüquq bərabərliyi və**
- **bu hüquqların, o cümlədən iqtisadi (mülkiyyət hüququ və sahibkarlıqla məşğul olma), sosial təminat (sosial güzəştlərin alınması) və siyasi (siyasi partiyalar, QHT və həmkarlar ittifaqlarına daxil olma və iştirak) hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətidir**

**HÜQUQİ AÇIQCALAR**

**Azərbaycan Respublikasının Konstitusiyası, 25-ci maddənin II və III hissələri; “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun, maddə 1, 2, 15, 16, 19**

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**Cinsi mənsubiyyətə görə hüquq və azadlıqların məhdudlaşdırılması və ayrı-seçkilik qadağandır.**

**Cinsi ayrı-seçkilik -**
**• seksual qısnama - əmək / xidmət münasibətlərində olan şəxsi alçaldan / təhqir edən, başqa cinsə / cinsi yönümə mənsubiyyətdən irəli gələn və**
**• hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran / inkar edən fərq, istisna və ya üstünlükdür.**

**Seksual qısnama - fiziki hərəkətlərdə (toxunma, əllə vurma), ədəbsiz sözlərdə, jestlərdə, hədələrdə, ləkələyici təkliflərdə və ya dəvətlərdə təzahür edən əxlaqsız davranışdır**

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun, maddə 2, 3.1., 4, 11, 17

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
1949.2019

**Məişət zorakılığı –**
**yaxın qohumların, birgə və ya əvvəllər birgə yaşayan şəxslərin birinin digərinə qəsdən fiziki (döyüş, sağlamlığa zərər, işgəncə və s.) və ya mənəvi (psixi təzyiq / dözülməz psixi şərait) zərər vurmasıdır.**

**Zərər çəkmiş şəxsin hüquqları:**

- **sosial xidmət üçün müraciət etmək və kütləvi informasiya vasitələri ilə təmin olunmaq,**
- **dövlət yardım mərkəzlərində pulsuz hüquqi, tibbi, psixoloji yardım, müvəqqəti sığınacaq almaq,**
- **işlə təmin olunmaqda kömək almaq,**
- **məhkəmədən  dərhal icra edilən qısamüddətli (30 günədək) və ya uzunmüddətli (30-180 günlük) mühafizə orderi almaq.**

**Məişət zorakılığı barədə şikayətlərə cinayət-prosessual və ya digər qaydada baxılır**

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun, maddə 1, 5, 10-12, 19 “Sosial xidmət haqqında” Qanun, maddə 7, 8

HÜQUQİ AÇIQCALAR

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**Təhsil hüququnun həyata keçirilməsi üçün, o cümlədən**

- **təhsil sahəsinin və ixtisas seçimi,**
- **təhsil müəssisələrinə qəbul,**
- **təqaüdlə təmin edilmə,**
- **tədris planının tərtibi,**
- **biliyin qiymətləndirilməsi,**
- **məzunların işlə təmin edilməsi,**
- **təhsilin növbəti pillədə davam etdirilməsi,**
- **ixtisasın artırılması**

**zamanı kişi və qadınlar üçün bərabər imkanlar yaradılmalıdır.**

**Dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalıdır**

HÜQUQİ AÇIQCALAR

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun, maddə 13, 14; “Təhsil haqqında” Qanun, maddə 3.1, 5.3

# “AZƏRBAYCANDA GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI” LAYİHƏSİ

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

1949.2019

**İşəgötürən:**

**• əmək fəaliyyətində gender bərabərliyini təmin edir, bir iş yerində eyni ixtisas dərəcəsi ilə eyni işi görənlərə eyni iş şəraiti yaradır və əməyini eyni ödəyir,**

**• cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almalı, əks halda seksual qısnamaya məruz qalmış işçiyə vurulan ziyana görə tam maddi məsuliyyət daşıyır.**

**Seksual qısnamaya görə işəgötürənindən / rəhbərindən şikayət etmiş işçiyə təzyiq edildikdə, vəzifəli şəxslər inzibati qaydada 1500-2500 manat cərimə edilirlər.**

**Kişi və qadınların hüquq bərabərliyinə zidd olan elanların dərci, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsi qadağandır**

HÜQUQİ AÇIQCALAR

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun, maddə 7.1, 9.1, 10.2, 10.3; Əmək Məcəlləsi, maddə 12, maddə 195; İnzibati Xətalar Məcəlləsi, maddə 205

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqının bütün üzv dövlətləri daxil olmaqla 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

1949.2019

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE